## Kəmaləddin Qədim - 60

# Allah mənim canımı sözsüz alır

## Kəmaləddin Qədim: "Heç vaxt qələmə xəyanət etməmişəm"



**- İlk kitabınıza Bəxtiyar Vahabzadə giriş yazısı yazıbmış, ancaq nəşriyyatda həmin yazını çap olunmağa qoymayıblar. O vaxt gənc bir şair kimi bu hadisə sizi çoxmu sarsıtmışdı?**

- Bəli, çox pis təsir etdi. Əslində, o vaxt çap məsələsi, doğrudan da, çətin proses idi, aylarla, illərlə gözləməli olurduq. "Ədəbiyyat" qəzeti, "Ulduz" jurnalı yazıları gec çap edirdi. Az-az çap olunurduq. Mən onda Naxçıvanın ucqar bir kəndində yaşayırdım. Bir müəllim dostum çox təkid etdi ki, şeirlərimi Bəxtiyar Vahabzadənin ünvanına göndərim. Fikirləşirdim ki, göndərsəm də önəm verməz, amma Bəxtiyar müəllim oxuyub bəyənmişdi. Bu gün də həmin yazıları saxlayıram. Həmin hadisədən sonra Bəxtiyar müəllim şeirlərimə "uğurlu yol" yazıb qəzetə təqdim etmişdi. Beləliklə, mənə qapılar açıldı. O vaxt "Yazıçı" nəşriyyatında ilk kitabım tematik plana düşmüşdü. O dövrün bəzi müəllifləri ilə müqayisədə, mənim kitabım daha asan çap olundu. Bəxtiyar müəllimin şeirlərimi qəzetə təqdim etməsi mənim üzümə gənc bir şair kimi çoxlu qapılar açdı. Amma nəşriyyatda onun haqqımda yazdığı yazı kitabımdan çıxarılanda, bu hadisə mənə çox pis təsir etdi.

**- Sevgi şeirlərinizdə yaş hiss olunmur. Sevgi hissiniz sizinlə birgə yaşa dolmayıb?**

- Sevginin yaşı olmur axı, sevgi vaxta baxmır. Daha çox son vaxtlar sevgi şeirləri yazdım. Bunun tarixçəsi uzundur, bir televiziya verilişində də danışmışam. Bu şeirlərin yazılmağında Tanrı lütfü var və onlarda əsasən, ilahi sevgini duymaq olar. Mənim "Allahı sevsəydim" adlı sevgi şeirlərindən ibarət kitabım çap olunub. Desəm, inanmazsınız, o kitab 3 ay müddətinə yazılıb. Həmin şeirləri Nüsrət Kəsəmənlinin şeirlərilə müqayisədə təhlil etmişdilər. Mənim şeirlərimdə türk qadınını ucaldıb sevmək məsələsi daha qabarıqdır, nəinki intim məsələlər. Çünki mən özüm lap cavanlıqdan ibadətlə məşğul oluram. Amma deməliyəm ki, şeir də ibadətdir. Şeir həm də sevgidir. buna görə şeirlərdə yaş bilinməməlidir. Çünki insan sevgiylə yaşayır, sevgiylə həyata gəlir. Ona görə də onu nə iləsə məhdudlaşdırmaq olmaz.

**- Onda belə demək olar ki, sizin sevgi hissləriniz dəyişməyib, cavanlıqda necə sevmisinizsə indi də o hisslər qalıb və şeirlərinizdə öz ifadəsini tapır.**

- Mənim yaradıcılığımda heç nə dəyişmir. 1972-ci ilin əvvəllərindən mətbuatda çap olunuram, amma demək olar ki, yaradıcılığımda heç nə dəyişməyib. Yaradıcılığa təkcə sevgi şeirləri istiqamətindən yanaşmaq olmaz. Mənim haqqımda çoxlu yazılar yazılıb. Onlara baxanda görmək olar ki, şeirlərimdə milli ruh, vətənpərvərlik daha çoxdur, nəinki sevgi. Belə deyirlər ki, sərhəddə yaşayanlarda vətənpərvərlik hissləri daha güclü olur. Bizim kəndimiz də ermənilərlə çox az məsafədə yerləşir. Bu məsələlərin təsirindən vətənpərvərlik mövzusunda olan şeirlərim daha çoxdur.

**- Yaradıcılığınız haqqında xeyli məqalələr yazılıb. Ayrıca bir kitabda cəm olub həmin yazılar. Kimlərin yaradıcılığınız haqqında dedikləri sizi razı salıb?**

- İlk növbədə təbii ki, xalq şairimiz Bəxtiyar Vahabzadənin fikirləri mənim üçün xüsusi önəm daşıyır. Onun kimi böyük bir şairin Naxçıvanın hansısa ucqar kəndindəki gənc yazar haqqında fikir söyləməsi ədəbiyyat aləmində səs-küy doğurdu. Ondan başqa mənim yaşıdlarımın - Akif Səmədin, Məmməd İlqarın, gözəl tənqidçimiz Vaqif Yusiflinin, Məmməd Dəmirçioğlunun yazıları da əhəmiyyətlidir. Musa Yaqubun "525-ci qəzet"də 60 illiyimlə əlaqəli "Darıxan misralar" adlı yazısı çıxmışdı. Amma deməliyəm ki, mən bir şair kimi az təbliğ olunmuşam. Haqqımda kifayət qədər söz deyilməyib, yazılmayıb. Zaman elə tələb edir ki, gərək özün bu işlərlə məşğul olasan. Özün haralarasa gedəsən, özünü təbliğ edəsən. Bəlkə də, bu, bir az da mənim günahımdır ki, abrıma-həyama sığınmışam. Amma bu xüsusiyyət bizim zamanda özünü doğrultmur.

**- Amma bu hal da müəyyən dərəcədə absurddur. Tutaq ki, kimsə bu dövrdə özünü təbliğ etdi, bəs ölümündən 200 il sonra onun təbliği ilə kim məşğul olacaq?**

- Buna görə də yaxşı yazmaq lazımdır. Müqəddəs kitabımız "Qurani-Kərim"də "Qələm" adlı surə var. Mən bu surəni həmişə yaradıcılığım üçün əsas götürmüşəm. Orada Tanrı bir neçə müqəddəs şeyə and içir ki, onlardan biri də qələmdir. Qələmə xəyanət etmək böyük günahlardan biri sayılır. Mən bununla fəxr edirəm ki, heç vaxt qələmə xəyanət etməmişəm. Bu neçə il ərzində hələ boğazdan yuxarı yazdığım şeirlərim olmayıb. Şükürlər ki, kimlərəsə mədhiyyələr yazmamışam. 1987-ci ildə Zəlimxan Yaqub kitabın redaktoru kimi şeirlər olan qovluğu açanda orada partiyaya, Sovet rejiminə aid şeirlər axtardı. Amma mənim belə şeirlərim yox idi. Bu baxımdan özümü xoşbəxt sayıram. İnsan yaxşı şeirləri ilə xatırlanmalıdır. Mən bunu bir şeirimdə də yazmışam ki, "üzə tutulası beş-on günüm var". Şeirlərimin içində də üzə tutulası beş-on şeirim var, onlar mənə kifayət edir.

**- Siz də "səksənincilər" nəslindən sayılırsınız. O nəslin yazarlarında sanki bir ehtiyatlılıq var. Bu nə ilə bağlıdır?**

- Mən buna ehtiyatlılıq deməzdim. səksəninci illər nəslinin çox görkəmli nümayəndələri var. Amma onlar kifayət qədər təbliğ olunmadılar. Çünki onların yaradıcılığının qaynar dövrü keçid dövrünə düşdü, kitabları çap olunmadı. Həm də o illər azadlıq hərəkatının başladığı dövrlər idi. Müstəqillik uğrunda mübarizə getdi. Buna görə də mən bu ehtiyatlılığı əxlaqi baxımdan dəyərləndirirəm. Belə bir hədis var ki, həmişə misal gətirirəm. "İbadəti olmayandan müsəlman olar, əxlaqı olmayandan müsəlman olmaz". Necə böyük fikirdir. Dinimizdə də var ki, əxlaq böyük bir dəyərdir. Bizim nəsil daha çox özlərinin əxlaqını qoruyub saxladılar. Özlərindən əvvəlki nəslə hörməti itirmədilər.

**- "Xəstəxana şeirləri" adında bir silsilə yazmısınız. Xəstəxanadakı günlər yaradıcılığınıza necə təsir etdi?**

- Mənim yaradıcılığımda fanilik hissi çoxdur. Kitablarımın da, şeirlərimin də adında bu var. Yəni, həmişə yazılarımda son haqqında, ölüm haqqında fikirlər olub. Təkcə xəstəxana müddətində yaranmayıb elə şeirlər. Şeirimdə belə bir misra var ki, "Ölümüm sirrimdi ölüm, ölüb sirrimi açaram". Bu Tanrıya göndərilmiş bir mesaj idi. Ölüm sirdir, insan yalnız o biri dünyaya köçəndə bu sirri öyrənməyə müvəffəq olur. Xəstəxanadakı otağım reanimasiyaya yaxın idi. Oraya tez-tez ağır xəstələr gətirirdilər və dünyasını dəyişənlər olurdu. Beləcə, müşahidələr əsasında o şeirlər silsiləsi yarandı.

**- Naxçıvanda yaşamısınız, işləmisiniz. Orda da ədəbi mühit var, amma paytaxtdakı kimi qaynar deyil. Bu baxımdan Bakı həyatının yaradıcılığınıza təsiri necə oldu?**

- Mən müharibə vaxtı Bakıya gəlmədim, Sədərəkdə gedən döyüşlərdə iştirak etdim. Həm də onda Bakıya gəlmək üçün imkan yox idi. Mən Bakıya döyüşlər bitəndən sonra, Naxçıvanın sabit vaxtlarında gəldim. Təbii ki, Bakı şəhəri yaradıcılığımda böyük rol oynadı. Daha çox çap olundum, qələm adamlarına daha da yaxınlaşdım. Amma düşünürəm ki, Bakıya gec gəlməklə elə çox şey itirməmişəm.

**- Bəs yaradıcı ünsiyyətlərin, ədəbi mühitdə tanıdığınız adamların sizə necə təsirlər oldu?**

- Mən müəyyən mənada o təsirlərdən uzağam. Çünki indiki yaradıcı adamlar kafelərdə və s. yığışırlar. Mənim də spirtli içki ilə aram yoxdur. Mən özümlə tək qalanda, Tanrı ilə tək qalanda daha yaxşı yazıram. Amma ümumən Akif Səmədlə, Adil Mirseyidlə, Məmməd Dəmirçioğluyla yaxınlığımın yaradıcılığıma təsiri olub.

**- İmpuls aldığınız şairlər kimlər olub?**

- Gənc vaxtı daha çox oxuyurdum. Sovet ədəbiyyatından da oxuduqlarım olurdu. Məsələn, Sergey Yesenini daha çox sevirdim. Amma ondan da çox öz poeziyamıza köklənən adam olmuşam. Bəxtiyar Vahabzadədən, Məmməd Arazdan, Şahmar Əkbərzadədən təsirlənmələrim olub.

**- Son kitablarınızdan birinə ön söz yerinə şeirlərinizdən seçmələr daxil etmək ideyası haradan yarandı?**

- Bu seçmələr, mənə elə gəlir ki, kitab haqqında təəssürat yaradır. Həm yenilik üçün, həm də kitab haqqında dediyim kimi, müəyyən təəssürat yaratmaq üçün belə bir iş gördük.

**- Sizin haqqınızdakı yazılarda, tez-tez məhsuldar şair adlandırırlar. Sizcə, şairin məhsuldar olması onun şeirlərinin keyfiyyətinə mənfi təsir edirmi?**

- Mənə bunu irad tutanlar olub. Vaqif Yusifli bir dəfə yarı ciddi, yarı zarafat dedi ki, Kəmaləddin Qədim hər il bir kitab çıxarır. Özüm də bu barədə düşünürəm. Amma elə anlar olub ki, aylarla yaza bilməmişəm. Bir şeirimdə yazmışam ki, Allah mənim canımı sözsüz alır. Amma mən şeirlərimin mənfi tərəflərini də görürəm. Belə düşünürəm ki, çoxluğun içində mənim gözdən düşəcək şeirlərim yoxdur.

İlk şeirim orta məktəbdə oxuyanda radioda səslәndirilib. Yəni, uşaq yaşlarımdan yazıram, hardasa qırx il olar.

**- 40 ilin təcrübəsiylə baxanda bu günün şeirində hansı axsamaları müşahidə edirsiniz?**

- Bu gün ədəbi mühitimizdə çox istedadlı gənclərimiz var, elə də axsamalar görünmür. Amma gənc yazarların əksəri həddindən artıq iddialıdırlar və özlərindən əvvəlki nəsilləri qəbul etmək istəmirlər. Mən sosial şəbəkələrdə də izləyirəm, oxuyuram. Müəyyən mənada özümü o gənclərin sırasında hesab edirəm. Məsələn, Qılman İman, Şəhriyar del Gerani və s. bu gənclər istedadlıdırlar.

**- Bəs gənclərin sizin yaradıcılığınıza münasibəti necədir?**

- Gənclər şeirlərimi oxuyurlar, paylaşırlar. Ad çəkə bilmirəm, hamısını dəqiq xatırlamıram.

**- Gənclik illərinizdə mütaliəyə çox vaxt ayırırdınız?**

- Əvvəllər nəsr daha çox oxuyurdum, amma indi poeziyanı. Əjdər Olu sevə-sevə oxuyuram. Mövlud Süleymanlının, Seyran Səxavətin yazdıqlarını oxuyurdum. Amma bəzi nasirlər var ki, dilləri həddindən artıq qəlizdir. Ona görə də daha çox poeziya nümunələri oxumağa üstünlük verirəm.

**- Onda belə çıxır ki, sizin üçün dil faktoru çox önəmlidir...**

- Əlbəttə ki, mən şeirlərimdə də dil faktoruna çox önəm verirəm. Bu, mənim dilə olan sevgimdən irəli gəlir. Bəlkə də şeirlərimin sevilməyinin birinci səbəbi dilə olan münasibətimdir.

**- Kitablarınızı əcnəbi dillərə tərcümə etdirmək məsələsinə münasibətiniz necədir?**

- Mənim şeirlərimdə türk təfəkkürü var, ingilis təfəkkürü ilə üst-üstə düşməz. Bu geniş mövzudur. Məndə daha çox milli ruh daha çoxdur. Mən də daha çox bunun tərəfindəyəm. Özüm oxuyanda da belə əsərlər oxuyuram. Türkiyədə çox çap olunmuşam, düşünürəm ki, bu kifayət edər. Amma şeirlərim Avropa dillərinə tərcümə olunsa həmin effekti verməz, çünki onların təfəkkürü fərqlidir. Həm də mən həmişə unudulmaq istəmişəm, ortalıqda olmaqdan qaçmışam. Buna görə dünyaya çıxmamaqla heç nə itirməmişəm.

**- Daim qəlblə həmnəfəs olmağın, ürəklə hesablaşmağın çətinliyi nədən ibarətdir?**

- Mən hər şeyi içimdə çəkən adamam. Daha çox ölüm haqqında, dünyanın faniliyi haqqında düşünürəm. Elə bilirəm ki, dünyaya bağlanmaq hissindən uzağam. Bu mənim şeirlərimdə də var. Buna görə irfan, fanilik kimi mövzular şeirlərimdə çoxdur.

**Fərid Hüseyn**